BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ

*№4 Sosial-siyasi elmlər seriyası 2013*

**UOT 341.2; 341.231.14**

# MƏLUMAT AZADLIĞI HÜQUQUNUN ANLAYIŞI VƏ MƏZMUNU

**G.M.VƏLİYEVA**
***AMEA Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutu***
***gunel_veliyeva@yahoo.com***

*Elmi məqalədə məlumat azadlığı hüququnun anlayışı, məzmunu, xüsusiyyətləri, informasiya hüququnun, kütləvi informasiyanın anlayışı və məzmunuilə bağlı məsələlər Azərbaycan Respublikası qanunvericiliyi və İnsan hüquqları sahəsində beynəlxalq sənədlər əsasında araşdırılır. Məqalədə Azərbaycan Respublikası qanunvericiliyində təsbit olunan məlumat azadlığı və informasiya əldə etmək hüququ anlayışları müqayisəli təhlil olunur, onlar arasında oxşar və fərqli cəhətlər açıqlanır. Eyni zamanda,Əsas Hüquq və Azadlıqlar haqqında 1950-ci il Konvensiyası və Mülki və Siyasi Hüquqlar haqqında 1966-cı il Beynəlxalq Konvensiyası çərçivəsində məlumat azadlığı hüququnun anlayışı, əsas xüsusiyyətləri və əhatə dairəsi tədqiq olunur.*

**Açar sözlər:** məlumat azadlığı, informasiya hüququ, fikir azadlığı, informasiya hüquq institutu, informasiya azadlığı, kütləvi informasiya

İnsan hüquqlarının müdafiəsi ilə bağlı xüsusilə XX əsrin ortalarında baş verən dəyişikliklər dövlət maraqlarının insan hüquqlarına nisbətən ikinci plana keçməsi tendensiyasını artırdı. Məlumat hüququ ifadə azadlığınıntərkib hissəsi kimi bu hüquqla bağlı olan bir sıra hüquq və azadlıqların başlanğıcı hesab oluna bilər: yəni əldə oluna bilən informasiyanı əldə etmək və ya ictimai maraqlı informasiyanı almaq hüququ, həmçinin şəxslərin azad və aktiv şəkildə informasiya axtarmaq, əldə etmək, almaq və yaymaq hüququnu əhatə edir. Məlumat azadlığı geniş mənada müəyyən növ informasiyaların əldə olunduğunu təmin etmək üçün dövlətin müəyyən pozitiv addımlar atmasını müəyyənləşdirən öhdəlikləri və eyni zamanda məlumat azadlığının həyata keçirilməsinə maneə olmamaq öhdəliyini əhatə edir. Fundamental səviyyədə isə məlumat hüququ insan hüquqlarının müdafiəsində əsas vasitələrdən biridir ki, insan hüquqları pozulması haqqında məlumatlar almaq və müvafiq dövlət və ictimai qurumları baş verən pozuntular barədə məlumatlandırmaq, korrupsiya ilə mübarizə, şəffaflıq, hakimiyyətin cavabdehliyi, müraciət etmək və ən əsas beynəlxalq insan hüquqları öhdəliklərinə hörmət və qanunun aliliyinin təmin olunmasında xüsusilə əhəmiyyətli vasitədir. Buna görə də,

ifadə və məlumat azadlığı birinci nəsil insan hüquqları sırasında göstərilir. Vətəndaşların məlumatlı olması açıq hökumətin əsas şərtlərindəndir. Bu baxımdan məlumat azadlığı həm də konstitusion hüquq kimi qiymətləndirilə bilər. Lakin məlumat azadlığı həm də siyasi hüquqların əsas mənbəyi kimi qiymətləndirilə bilər.Məlumat azadlığı cəmiyyət və dövlətin inkişafında xüsusi rol oynayaraq vətəndaşların dövlət idarəçiliyində iştirakında əsas vasitələrdən biri kimi çıxış edir.

Məlumat ümumi xarakterli hadisələri əks etdirir və insan həyatının bütün sahələri ilə bağlı obyektin xüsusiyyətlərini özündə əks etdirir. Burada məlumat və informasiya terminlərinin hər ikisinə diqqət yetirilməlidir. Daha əvvəlki dövrlərdə "informasiya" termini şifahi və ya hər hansı digər yolla məlumatların bir-birinə ötürülməsi kimi başa düşülürdü. XIX əsrə qədər informasiya sözü əsasən məzmunu, fikri, ideyanı formaya salmaq mənasında izah edilirdi. XX əsrin ikinci yarısından bu terminin etimologiyasında dəyişiklik baş verdi və latın dilində olduğu kimi daha çox tanış etmə, ifadə, işin halları barədə, fəaliyyət barədə məlumat və ya məlumat verilməsi kimi izah olunmağa başladı (6). Qeyd edək ki, İ.L.Baçilo "İnformasiya hüququ" kitabında məzmunu birbaşa informasiya ilə bağlı olan normaları müxtəlif institutlara bölür və burada istənilən qanuni yolla məlumatı azad axtarmaq, əldə etmək, ötürmək, istehsal etmək və yaymaq hüququnu- informasiya azadlığı institutuna daxil edir [7, 129].

P.U.Kuznetsov Vinerin informasiyanın vacibliyi barədə fikirlərinə əsaslanaraq məlumat azadlığını İnsan hüquqları mövqeyindən qiymətləndirərək qeyd edir ki, "məlumat azadlığı həyati vəziyyətlərdə istiqamətlənmək və özü üçün ətraf mühitə uyğunlaşmaq üçün daha uyğun variant tapmaq və ya böhrandan optimal çıxış yolu tapmaq məqsədilə mövcud vəziyyət barədə həqiqəti daha düzgün anlamaq üçün insanın təbii tələbatı kimi qəbul olunmalıdır. Bu həyatın böhranlı vəziyyətlər və onların təhlükəli təzahürləri ilə dolu olduğu vaxtda xüsusilə aktualdır. Belə şəraitdə insan həqiqət və ya gerçəkliyin daha adekvat əksində maraqlıdır. Məhz bu maraq, bu tələbat təbii təbiətə malikdir, buna görə də, məlumat hüququnu insan hüquqlarına aid etmək tamamilə təbiidir" [8, 32-33].

Şəxsin məlumat azadlığı hüququ aşağıdakı konkret məsələləri özündə əks etdirir: azad məlumat axtarmaq, əldə etmək, ötürmək, hazırlamaq və yaymaq hüququ; kütləvi informasiya azadlığı;ətraf mühitin vəziyyəti barədə düzgün məlumat almaq hüququ;insanların həyatı və sağlamlığı üçün təhlükə törədən hallar barədə məlumat almaq hüququ; mədəni dəyərlərdən istifadə ilə bağlı məlumat almaq hüququ; insan və vətəndaş hüquq və azadlıqları ilə bağlılığı olan hər hansı qanunların və digər normativ hüquqi aktların rəsmi nəşrinin məcburiliyi; şəxsin fikir və ya ifadə azadlığı; hər kəsin onun hüquq və azadlıqlarını nəzərdə tutan sənədlərlə tanış olması və s.

İnformasiya azadlığı, informasiya hüququ, məlumat azadlığı anlayışları arasında fərqləri müəyyənləşdirmək milli qanunvericiliyin müvafiq aktları əsasında mümkündür. Azərbaycan Respublikası Konstitusiyasının 50-ci

maddəsi məlumat azadlığı hüququnu müəyyənləşdirir. Bu maddə əhatə dairəsinə görə çox genişdir və məlumat azadlığı hüququ ilə birbaşa bağlı olan bir sıra hüquqi məsələlərdə ümumi başlanğıclar müəyyənləşdirir. Bunlara əsasən aşağıdakılar daxildir: məlumatın axtarılması, əldə edilməsi, ötürülməsi, hazırlanması və yayılması azadlıqları; kütləvi informasiyanın azadlığı; dövlət senzurasının qadağan olunması; kütləvi informasiya vasitələrində əks olunan və hüquqları pozan və mənafelərə xələl gətirən məlumatların təkzib olunması və ya onlara cavab verilməsi hüququ və s. Azərbaycan Respublikası qanunvericiliyində məlumat hüququ ilə bağlı münasibətləri birbaşa tənzimləyən qanunvericilik aktları Konstitusiyanın 50-ci maddəsinə istinad edir: İnformasiya əldə etmək haqqında AR Qanunu, Məlumat azadlığı haqqında AR Qanunu, Kütləvi informasiya vasitələri haqqında Azərbaycan Respublikasının Qanunu. Eyni zamanda Konstitusiyanın fikir və ifadə azadlığını təsbit edən 47-ci maddəsinin 2-ci (öz fikir və əqidəsini açıqlamaq) və 3-cü bəndi (irqi, milli, dini, sosial ədavət və düşmənçilik oyadan təşviqata və təbliğata yol verilməməsi) məlumat hüququ ilə birbaşa bağlıdır. 51-ci maddədə təsbit olunmuş yaradıcılıq azadlığını nəzərdə tutan hər hansı incəsənət növü vasitəsilə ifadə formasının ictimai maraqlar, məlumat azadlığı, mədəni dəyərlərin öyrənilməsi, istifadəsi və yayılması, yaradıcılıq azadlığıməsələləsi ilə bağlılığı əhəmiyyətlidir. Sağlam ətraf mühitdə yaşamaq hüququnu nəzərdə tutan 39-cu maddənin 2-ci bəndində "hər kəsin ətraf mühitin əsl vəziyyəti haqqında məlumat toplamaq" hüququ nəzərdə tutulur. 41-ci maddənin 3-cü bəndinə əsasən "insanların həyatı və sağlamlığı üçün təhlükə törədən faktları və halları gizlədən vəzifəli şəxslər qanun əsasında məsuliyyətə cəlb edilirlər.

Məlumat azadlığı ilə bağlı Azərbaycan Respublikası qanunvericiliyində ayrı-ayrı məsələləri tənzimləyən çoxsaylı qanunvericilik aktlarının mövcud olmasına baxmayaraq "Məlumat azadlığı haqqında" Azərbaycan Respublikası Qanunu və "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikası Qanunu məlumat azadlığı hüququnun əsas xüsusiyyətlərini müəyyənləşdirir.

"Məlumat azadlığı haqqında" AR Qanunu [4] məlumat azadlığının həyata keçirilməsi ilə əlaqədar yaranan münasibətləri tənzimləyir. Qanun çərçivəsində məlumat "təqdimat formasından asılı olmayaraq təbiətdə, cəmiyyətdə və dövlətdə baş vermiş hadisələr, proseslər, faktlar və şəxslər haqqında xəbərlər"i nəzərdə tutur. Bu Qanunda AR Konstitusiyasının 50-ci maddəsinə əsaslanaraq məlumat azadlığı "hər kəsin istədiyi məlumatı qanuni yolla axtarmaq, əldə etmək, ötürmək, hazırlamaq və yaymaq azadlığı"nı nəzərdə tutur. Məlumat azadlığının əsas təminat vasitəsi "Hər kəsin məlumat əldə etmək üçün müraciət etmək hüququ"dur. Qanunun əsas xüsusiyyətlərindən biri odur ki, Qanun sadəcə məlumat azadlığı hüququnu tənzim etmir, həm də məlumatın əldə edilməsi ilə bağlı münasibətləri müəyyən qədər tənzimləyir. Məlumatın əldə edilməsinin təmin edilməsi aşağıdakı yollarla həyata keçirilir: dövlət hakimiyyəti orqanlarının və bələdiyyələrin öz fəaliyyətləri və qəbul olunmuş qərarları barədə məlumatlar vermələri; dövlət hakimiyyəti

orqanlarında məlumatın əldə edilməsi üçün informasiya xidmətlərinin yaradılması; statistik məlumatlardan, kitabxanaların, arxivlərin və muzeylərin fondlarından, habelə informasiya sistemlərindən maneəsiz istifadə edilməsi; vətəndaşların həyatı və sağlamlığı üçün təhlükə yaradan fövqəladə hallar, təbii fəlakətlər və qəzalar barədə əhaliyə dərhal məlumat verilməsi; dövlətin təhlükəsizliyinə xətər yaradan fövqəladə hallar barədə əhaliyə dərhal məlumat verilməsi; kütləvi informasiya vasitələrində, o cümlədən mətbuatda dövlət senzurasına yol verilməməsi; normativ-hüquqi aktların qanunvericilikdə nəzərdə tutulmuş qaydada əhalinin nəzərinə çatdırılması [4, maddə 6].

Qeyd edək ki, "məlumat azadlığı" hüququna daxil olan "məlumat əldə etmək" hüququ əsasən "İnformasiya əldə etmək haqqında" AR Qanunu [2] ilə tənzimlənir. Bu Qanun dövlətlə və idarəçiliklə bağlı informasiyanın əldə edilməsi ilə əlaqədar yaranan münasibətləri tənzimləyir. Bu Qanun məlumat əldə etmək hüququnun sərbəst, maneəsiz və hamı üçün bərabər şərtlərlə, açıq cəmiyyətin və demokratik hüquqi dövlətin prinsipləri əsasında təmin edilməsinin hüquqi əsaslarını müəyyənləşdirmək, ictimai vəzifələrin yerinə yetirilməsinə vətəndaşlar tərəfindən nəzarət olunmasına şərait yaratmaq məqsədilə qəbul edilmişdir. Qanun çərçivəsində, informasiya - "yaranma tarixindən, təqdimat formasından və təsnifatından asılı olmayaraq istənilən fəaliyyət nəticəsində yaradılan, yaxud əldə olunan faktlar, rəylər, bilgilər, xəbərlər və ya digər xarakterli məlumatlar"ı ifadə edir. Qanunda informasiya səlahiyyətli orqanlar tərəfindən saxlanılan, qeydə alınan faktlar, rəylər, bilgilər, xəbərlər və ya digər xarakterli məlumatlar kimi qiymətləndirilir.

Beləliklə, "Məlumat azadlığı haqqında" Qanun məlumat azadlığı hüququ ilə bağlı əsas müddəaları və cəmiyyətdə məlumat mübadiləsinin əsaslarını müəyyənləşdirir. "İnformasiya əldə etmək haqqında" Qanun isə rəsmi və ya açıq informasiyanı əldə etmək hüququnu tənzimləyir. Məlumat azadlığı haqqında Qanuna əsasən Məlumat əldə edilməsi üçün sorğunun verilməsi və sorğuya baxılması «İnformasiya əldə etmək haqqında» Azərbaycan Respublikasının Qanunu ilə tənzimlənir. Milli qanunvericilik çərçivəsində İnformasiya azadlığı dövlət tərəfindən qeydə alınan məlumat, xəbər və bilgilərlə bağlıdır. Məlumat azadlığı isə hər cür fikir və ideyaların alınması, yayılması və ötürülməsi ilə bağlıdır. İnformasiya azadlığının təmin olunması dövlət orqanları ilə birbaşa əlaqəlidir. Məlumat azadlığı isə əsasən cəmiyyətdə baş verən ideyalar, faktlar, xəbərlər və bilgilər mübadiləsidir və bu daha çox cəmiyyətin özündə baş verən xəbər və məlumatlar mübadiləsi hesab oluna bilər.

Məlumat azadlığı ilə bağlı olan daha bir anlayış "kütləvi informasiya" anlayışıdır. Kütləvi informasiya vasitələri haqqında Azərbaycan Respublikasının Qanununa [3] əsasən kütləvi informasiya - axtarılması, əldə olunması, hazırlanması, ötürülməsi, istehsalı və yayımı qanunvericiliklə məhdudlaşdırılmayan, ümumi istifadə üçün nəzərdə tutulmuş mətbuat, audio, audiovizual xəbər və digər məlumatlardır. Bu Qanunun tətbiq sahəsi kütləvi informasiya vasitələrini - dövri mətbu nəşrlər, teleradio proqramları, informasiya

agentlikləri, İnternet, kinoxronika proqramları və digər yayım formalarını əhatə edir [3, maddə 2; maddə 3].

Məlumat azadlığının müdafiəsində prinsiplər xüsusi rol oynayır və qanunvericilikdə aşağıdakı prinsiplər nəzərdə tutulur: məlumat azadlığının təmin edilməsi; məlumatın açıqlığı və onun mübadilə edilməsinin azadlığı; məlumatın obyektivliyi, tamlığı və həqiqiliyi;məlumatın axtarılmasının, əldə edilməsinin, istifadə olunmasının, yayılmasının və qorunmasının qanuniliyi; hər kəsin şəxsi və ailə həyatının sirrinin saxlanması; şəxsiyyətin, cəmiyyətin və dövlətin təhlükəsizliyinin qorunması [4, mad. 5]

Məlumat azadlığının subyektləri Azərbaycan Respublikası vətəndaşları, əcnəbilərvə vətəndaşlığı olmayan şəxslər, o cümlədən hüquqi şəxslərdir. Məlumat azadlığı həm aktiv formada, yəni onun istifadəsi, digər şəxslərə müraciət etmək və ya hər hansı digər formada öz fikirlərini ifadə etmək hüquqlarını, eyni zamanda passiv formada - digərlərinin fikirləri ilə tanış olmaq, onları eşitmək və ya hər hansı digər formada mənimsəmək və ya dərk etmək hüququnu nəzərdə tutur. Dövlət orqanları və yerli özünüidarəetmə orqanlarının fəaliyyəti haqqında məlumatlar – öz səlahiyyətləri daxilində dövlət orqanları və ya onların ərazi orqanları, yerli özünüidarəetmə orqanları və ya təşkilatlarının səlahiyyətləri çərçivəsində, o cümlədən sənədləşdirilən məlumatlar subyektlər üçün əldə oluna bilən olmalıdır. Dövlət orqanları və ya yerli özünüidarəetmə orqanlarının fəaliyyətinə aid olan məlumatlara onların qəbul etdikləri qanunlar və digər normativ hüquqi aktlar, eləcə də, bələdiyyə və digər orqanların fəaliyyətini müəyyənləşdirən-strukturunu, səlahiyyətlərini, fəaliyyətini və formalaşdırılmasını müəyyənləşdirən digər qərarlar da daxildir.

Demokratik cəmiyyətdə söz və məlumat hüququnun pozulmasının əsas vasitələri kimi senzura, ilkin baxış, nəşr olunan kütləvi informasiya vasitələrinin məcburi lisenziyalaşdırılması, xaricdən gələn informasiya vasitələrinin idxalının məhdudlaşdırılması və onların ötürülməsinə inzibati qadağanın qoyulması və s. hesab olunur. Bu tip kütləvi informasiya vasitələrinə dövlət müdaxiləsi konstitusiya səviyyəsində demokratik dövlətlərdə qanunla qadağan olunur. Qeyd edək ki, məlumat azadlığı artıq dövlətin cavabdehlik konsepsiyası kimi təsbit olunmaqdadır və açıqlıq və şəffaf idarəetmənin əsas elementidir.

İnsan hüquq və azadlıqları çərçivəsində məlumat azadlığı anlayışı aşağıda göstərilən sahələrlə birbaşa bağlıdır: söz azadlığı, fikir azadlığı, təbliğat azadlığı, təşviqat azadlığı, etiqad azadlığı, məlumat və ya ideya azadlığı, kütləvi informasiya azadlığı, senzuraya məruz qalmamaq, öz fikrini və ideyalarını yaymaq azadlığıvə s. Bəzi hallarda söz azadlığı sadəcə məlumat və ideyaları deyil, həmçinin subyektiv fikirləri belə əhatə edə bilər.

Müasir beynəlxalq İnsan Hüquqları sistemində nəzərdə tutulan məlumat azadlığı ictimai-siyasi fikirlərin, söz və fikir azadlığının müdafiəsini, həmçinin dini, elmi, incəsənət təfəkkürünü, kommersiya məlumatlarını, reklam, yaradıcılıq və intellektual mülkiyyətlə bağlı hüquqların məlumat azadlığı ilə bağlı aspektlərinin mühafizəsini nəzərdə tutur. Buna görə də, məlumat azadlığı

din azadlığı, yaradıcılıq azadlığı, əqli mülkiyyət hüququ, sağlam ətraf mühit hüququ əsasında müdafiə oluna bilər. İnsan hüquqlarının müdafiəsi ilə bağlı beynəlxalq sənədlərdə məlumat almaq və ya informasiya hüququ fikir və ifadə azadlığının tərkibində nəzərdən keçirilir və hər bir fərdin öz fikrini sərbəst ifadə etmək hüququna malik olmaq, hər cür məlumat və ideyaların dövlət sərhədlərindən asılı olmayaraq şifahi və ya yazılı şəkildə, mətbuat və ya digər hər hansı bədii ifadə formaları vasitəsilə və yaxud öz seçiminə uyğun olaraq digər üsullarla axtarmaq, əldə etmək və yaymaq hüququnu əhatə edir.

Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Pakt çərçivəsində məlumat azadlığı hüququ ictimai informasiyanın açıqlığı; hər kəsin azad və aktiv şəkildə informasiya axtarmaq, əldə etmək və yaymaq hüququ; hakimiy-yətin cavabdehliyi; müraciət etmək və əsas insan hüquqları öhdəliklərinə hörmət və qanunun aliliyinin təmin olunması ilə bağlı hüquq və azadlıqları əhatə edir və onların əsasını təşkil edir. Həmçinin Konvensiya çərçivəsində məlumat azadlığı bir sıra hallarda siyasi hüquqların əsas mənbəyi kimi qiymətləndirilir. Buna görə də, məlumat azadlığı və əlaqəli hüquq və azadlıqlar 1966-cı ildə qəbul olunmuş və əsasən birinci nəsil insan hüquq və azadlıqlarını əhatə edən Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Paktda öz əksini tapmışdır.

Paktın 19-cu maddəsi fikir, ifadə və məlumat azadlığını nəzərdə tutur. 19-cu maddənin birinci bəndi hər kəsin fikir azadlığını nəzərdə tutur: "1. Hər bir insan maneəsiz olaraq öz fikirlərində qalmaq hüququna malikdir."Fikir azadlığına məzmunundan asılı olmayaraq istənilən fikir və mövqe, həmçinin öz fikrini şəxsin öz seçimi ilə istədiyi kimi dəyişmək hüququdaxildir. Fikir azadlığı mahiyyətinə görə heç bir məhdudlaşdırmaya və ya müdaxiləyə məruz qala bilməz və fikir azadlığına görə cinayət xarakterli cəza yolverilməzdir. Şəxsin öz fikirlərinə görə təhqir olunması, həbsi, sıxışdırılması, saxlanılması 19 (1) maddənin pozuntusu hesab olunur. Heç kim öz fikrinə, tutduğu mövqeyə görə Konvensiyada nəzərdə tutulan hüquqlarından hər hansı birinin pozuntusuna məruz qala bilməz [11, 2-3].

19-cu maddənin ikinci bəndi öz fikrini sərbəst ifadə etmək hüququnu nəzərdə tutur. İfadə azadlığının məzmununa isə "hər cür informasiyaları və ideyaları dövlət sərhədlərindən asılı olmayaraq şifahi və ya yazılı şəkildə, mətbuat və ya bədii ifadə formaları vasitəsilə və yaxud öz seçiminə uyğun olaraq digər üsullarla axtarmaq, almaq və yaymaq hüququ" daxil edilir. Bu maddə əsasında İnsan Hüquqları Komitəsinin baxdığı işləri araşdırdıqda məlumat azadlığının əhatə dairəsinin genişliyi özünü göstərir. Həmçinin müəyyən qədər vicdan və din azadlığı, ictimai işlərdə iştirak, cəmiyyətin siyasi həyatında iştirak hüququ bəzi hallarda fikir və ifadə azadlığı ilə birbaşa əlaqələnir.Buraya siyasi müzakirələr, kiminsə şəxsi fikrinə və ya ictimai işlərlə bağlı öz mövqeyini ifadə etmək hüququ, jurnalist və mətbuat fəaliyyəti, tədris-təhsil, dini müzakirələr, mədəni və digər yaradıcılıq formaları, kommersiya xarakterli reklamlar, qəzet, kitab, broşur və s. istənilən yayım formaları daxildir

19 (2) maddə çərçivəsində məlumat azadlığı əsasən aşağıdakıları ifadə edir: ictimai qurumlardan məlumat almaq hüququ; mətbuat azadlığı; siyasi fəaliyyət; təkbaşına və ya siyasi partiya və təşkilatlar, eləcə də qruplar tərkibində ictimai işlər barədə müzakirələr aparmaq, dinc nümayiş və mitinqlər təşkil etmək, seçki kampaniyaları dövründə siyasi materiallar nəşr etmək; tənqid etmək, müxalif fikirlər söyləmək, siyasi ideyalar bəyan etmək. Burada dövlət, tərəfin hər növ məlumat və ideyalarını sərhədlərdən asılı olmayaraq axtarmaq, qəbul etmək və ötürmək hüququ da daxil olmaqla ifadə azadlığının təmin olunmasını tələb edir.

İfadə vasitələrinə bütün növ ifadələr və onların yayılma üsulları: şifahi, yazılı, işarəli dillər və incəsənət növləri, şəkillər kimi qeyri-verbal ifadələr kitablar, qəzetlər, posterlər, geyim və s. daxildir. Hər növ audio-vizual, elektron və Internet ifadə üsulları da daxildir.

19 (2) maddə ictimai qurumlardan (dövlətin icra, qanunvericilik və məhkəmə hakimiyyətini yerinə yetirən dövlət adından məsuliyyət daşıyan milli, regional və yerli səviyyədə olmasından asılı olmayaraq ictimai və ya hakimiyyət qurumları və ya ictimai və ya hakimiyyət funksiyaları həyata keçirən qeyri-dövlət qurumları) məlumat almaq hüququnu nəzərdə tutur. Mətbuat və məlumat azadlığı ilə bağlı Konvensiyadan yaranan əsas mövqe bundan ibarətdir ki, 1) həm mətbuat ictimai məsələlər barədə müvafiq qurumlardan məlumat almaq hüququna malik olsun; 2) həm də ümumi ictimaiyyətin media məhsulunu əldə etmə hüququ təmin olunsun [11, 4]. Məlumat almaq hüququnun səmərəliliyini təmin etmək üçün dövlət tərəfi ictimai maraqlı dövlət informasiyasını ictimaiyyətin ixtiyarına verməlidir. İctimai və siyasi məsələlər barədə vətəndaşlar, namizədlər və seçilmiş nümayəndələr arasında informasiya və fikirlərin azad mübadiləsi xüsusi əhəmiyyətli hesab edilir. Bu azad mətbuat və digər vasitələrin heç bir senzura və məhdudiyyətlərə məruz qalmadan ictimai işləri şərh etməsi və ictimaiyyəti məlumatlandırmasını əhatə edir. Eyni zamanda demokratik cəmiyyətin əsaslarından biri ifadə azadlığı hüququ və azad və senzurasız mətbuat hesab olunur.Komitənin mövqeyinə əsasən vətəndaşlar öz nümayəndələri ilə müəyyən müzakirələrə girərək ictimai işlərin aparılmasında iştirak edirlər.İctimai və siyasi işlərlə bağlı məlumat və ideyaların vətəndaşlar, namizədlər və seçkili nümayəndələr arasında azad mübadiləsi hər hansı senzura və ya məhdudiyyətə məruz qalmadan ictimai məsələlər barədə şərhləri yayan azad mətbuat və digər kütləvi informasiya vasitələri vasitəsilə mümkündür. Buraya hər bir kəsin açıq şəkildə heç bir müdaxilə və ya cəza qorxusu olmadan öz hökumətini tənqid etmək və qiymətləndirmək imkanlarını da əhatə edir.

Məlumat azadlığı ifadə azadlığı ilə çox yaxın bağlılığa malikdir. Hər iki azadlıq ideyalara əsaslanır və şəxsin fikir və ideyalarının müdafiəsini tələb edir. Məlumat azadlığı olmadan ifadə azadlığı faydasızdır. Buna görə də, İnsan Hüquqları haqqında Universal Bəyannamənin 19-cu maddəsi əqidəyə malik olmaq və məlumat və ideyaları dövlət sərhədlərindən asılı olmayaraq istənilən

vasitələrlə axtarmaq, əldə etmək və yaymaq azadlığını ifadə azadlığının tərkib elementi kimi nəzərdən keçirir.

Əsas hüquq və azadlıqlar haqqında Avropa Konvensiyasının 10-cu maddəsində göstərilir ki, "Hər kəs öz fikrini ifadə etmək azadlığı hüququna malikdir. Bu hüquqa öz rəyində qalmaq azadlığı, dövlət hakimiyyəti orqanları tərəfindən hər hansı maneçilik olmadan və dövlət sərhədlərindən asılı olmayaraq, məlumat və ideyaları almaq və yaymaq azadlığı daxildir. Bu maddə dövlətlərin radioyayım, televiziya və kinematoqrafiya müəssisələrinə lisenziya tələbi qoymasına maneə olmur" [10, mad. 10]. Avropa İnsan Hüquqları Məhkəməsinin praktikasında fikir və söz azadlığının sinonimi kimi ifadə azadlığı da istifadə olunur. Əsas hüquq və azadlıqlar haqqında Avropa Konvensiyası çərçivəsində məlumat azadlığı aşağıda göstərilən elementlərə malikdir:

- Öz fikrini ifadə etmək azadlığı.
- Öz rəyində qalmaq azadlığı.
- Məlumat və ideyaları almaq.
- Məlumat və ideyaları yaymaq.

Avropa İnsan Hüquqları Konvensiyası məlumat azadlığı və ya informasiya hüququnu ifadə azadlığının tərkib hissəsində nəzərdən keçirir. Həmçinin məlumat azadlığı Konvensiyada nəzərdə tutulan digər hüquqlarla bağlı işlərdə müəyyən məsələlər əhatə olunur. Bu mövqedən yanaşaraq Avropa İnsan Hüquqları Konvensiyası çərçivəsində məlumat azadlığına iki formada yanaşmaq mümkündür:

1) şəxsin məlumat əldə etmək, axtarmaq, yaymaq və ötürmək hüququ;
2) digər insan hüquqlarının müdafiəsində prosedur vasitə kimi.

Məlumat azadlığı insanın özünü realizəsi ilə bağlı olan bir sıra hüquq və azadlıqları əhatə edir: hər bir insan varlığının öz mənşəyi haqqında bilmək hüququ; iqtisadi məsələlərlə bağlı məlumat almaq hüququ; yaradıcılıq azadlığı; dövlət orqanlarından məlumat almaq hüququ; şərəf və ləyaqətin müdafiəsi və şəxsi həyata hörmət hüququ; ictimai məlumatları əldə etmək hüququ; ətraf mühit haqqında məlumat almaq hüququ. Məhkəmənin mövqeyinə görə məlumat azadlığı dövlətin məlumat almaq hüququna və məlumat əldə etmə azadlığına maneə olmamalıdır. Buna görə də, dövlət məlumat azadlığının təmin olunmasında iki rol oynayır: dövlət məlumat almaq, əldə etmək və ötürmək azadlığına mane olmaqdan çəkinməlidir; həmçinin, dövlət bu hüquqların və azadlıqların həyata keçirilməsi üçün müvafiq şərait yaratmalıdır. Məlumat azadlığı iki istiqamətdə həyata keçirilir: 1) iştirakçıları insanlar, kütləvi informasiya vasitələri, iqtisadi-sosial və digər qrup və təşkilatlar olan cəmiyyətdə azad məlumat yayımı; 2) məlumat azadlığının təmin olunması üçün müəyyən öhdəlikləri olan və ictimai informasiyanın alınması, əldə edilməsi, yayılması və ötürülməsini təmin etməli olan dövlətin iştirakçısı olduğu ictimai məlumat mübadiləsinin azadlığı.

Məlumdur ki, məlumat və ideyaları ötürmək məlumat və xəbərləri əldə etməklə birbaşa bağlıdır. Avropa İnsan Hüquqları Məhkəməsinin praktikasında məlumat azadlığı bir neçə mövqedən qiymətləndirilir: kütləvi informasiya vasitələri, iqtisadi məsələlər, yaradıcılıq azadlığı, ətraf mühitlə bağlı məlumat (yaşamaq hüququnun təmin olunma vasitəsi kimi) hüququ və s. Məlumat azadlığı kontekstində hökuməti tənqid etmək hüququ Lingens Austria işində Məhkəmə tərəfindən açıq şəkildə təsbit olunmuşdur. İqtisadi məsələlərlə bağlı məlumat və ideyaları yaymaq və ictimaiyyətin onu qəbul etməsi hüququ 10-cu maddə altında müdafiə olunur. İncəsənət əsərləri ilə bağlı Avropa İnsan Hüquqları Məhkəməsinin mövqeyi daha maraqlıdır: Otto-Preminger İnstitutu Austriyaya qarşı işində [19]. Məhkəmə incəsənətlə bağlı yaradıcılıq və onun ictimaiyyətə çatdırılmasını demokratik cəmiyyətin əsas elementi olaraq ideya və fikirlərin mübadiləsinə töhfə kimi qiymətləndirmişdir [19, par. 16]. Eyni zamanda digərlərinin hüquq və azadlıqlarının müdafiəsi, birgə yaşayış, bir-birinə qarşı tolerantlıq və ifadə azadlığı arasında müəyyən balansın vacibliyi də göstərilir [19, par. 45]. Mətbuatla bağlı məhkəmə bildirmişdir ki, ictimai maraqlı müxtəlif sahələrdə, o cümlədən siyasi məsələlərlə bağlı mətbuatın məlumatları yaymaq və ictimaiyyətin də bu məlumatları almaq hüququ vardır [17]. Məhkəmənin praktikasına əsasən mətbuat və cəmiyyət arasında məlumat azadlığı sferasında dövlətin müdaxiləsi istisna olunur. Belə ki, yayımçı və qəbul edən arasındakı münasibətlərə dövlət müdaxilə etməməlidir və onların bir-biri ilə birbaşa əlaqə yaratmaq hüquqları var [16]. 1989-cu ildə baxılmış Gaskin Birləşmiş Krallığa qarşı işdə Məhkəmə hər kəsin bir insan varlığı olaraq öz mənşəyi haqqında bilmək hüququnu müəyyənləşdirdi [20]. Həmçinin, ətraf mühitə zərərli fəaliyyət göstərildikdə insanları xəbərdar etmək üçün məlumat nəşr etmək məlumat azadlığında vacib məsələlərdən biri hesab olunur [21]. Mahiyyətinə diqqət yetirsək, Konvensiyada nəzərdə tutulan informasiya azadlığı konsepsiyasına daxili qanunvericilikdə təsbit olunan həm məlumat azadlığı, həm də informasiya əldə etmək hüququ daxildir. Əsas hüquq və azadlıqlar haqqında Avropa Konvensiyası əsas insan hüquq və azadlıqlarının müdafiəsinə yönəlmişdir və burada nəzərdə tutulan məlumat azadlığı konsepsiyası məhz insan hüquq və azadlıqlarından biri kimi, həm də digər hüquqların təmin olunma vasitəsi kimi qiymətləndirilir.

Fikir və ya ifadə azadlığı, eləcə də məlumat azadlığı terminləri arasında müəyyən fərqi diqqətə çatdırmaq üçün Məhkəmə ideya və fakt anlayışlarını qiymətləndirərək göstərir ki, "faktların mövcudluğu nümayiş etdirilə bilər, lakin dəyərləndirmə mövqeyinin həqiqiliyi sübut oluna bilməz... (18, par.46). Burada fakt-məlumat və dəyərləndirmə - rəy (fact and value) xüsusi əhəmiyyətə malikdir. Çünki dəyərləndirmə haqlı ola da bilər, olmaya da bilər. Dəyərləndirmə artıq konkret faktı yox, subyektiv münasibəti bildirir. Ona görə də, bu vəziyyətdə araşdırılan məsələ konkretləşdirilməlidir (17, 10).

Avropa İnsan Hüquqları Konvensiyasının 10-cu maddəsini araşdırarkən belə bir yanaşmaya rast gəlmək olar ki, "məlumat azadlığı" söz azadlığının

əsas hissəsidir (hər hansı məlumatı yaymaq, öz fikrini ifadə etmək, eləcə də məlumat əldə etmə hüququ söz azadlığının təmin olunmasına yönəlmişdir). Konvensiyada məlumat,söz azadlığı və fikir azadlığı bir maddədə əks olunur və onlar arasında kifayət qədər sıx əlaqə mövcuddur.

Fikir adı altında sözün dar mənasında sadəcə fikir başa düşülmür, eyni zamanda insanın hiss və emosiyaları, söz adı altında verbal və qeyri-verbal ünsiyyət: səs tonu, üzün ifadəsi, jestlər, mimika və s. nəzərdə tutulur. Bu maddə kontekstində fikir sadəcə təbii insan dili ilə ifadə oluna bilməz, eyni zamanda dil və ya işarələr sistemi ilə ifadə oluna bilər, məsələn, əlyazma, fotoqrafiya, kino, video, və s. Məhkəmənin praktikasında göstərilir ki, öz fikrini ifadə etmək azadlığı demokratik cəmiyyətin və şəxsiyyətin cəmiyyətin üzvü kimi özünüifadəsinin əsasıdır. Bundan başqa, Məhkəmənin praktikası göstərir ki, "10-cu maddə fikir və ideyaların məzmununu və onların ifadə formalarını mühafizə edir".

Avropa İnsan Hüquqları Konvensiyası məlumat azadlığı hüququnu fikir və ifadə azadlığı hüququnu nəzərdə tutan 10-cu maddədə kompleks halda nəzərdə tutmuşdur. Onu da qeyd edək ki, bu maddə nisbətən mücərrəd xarakter daşıyır və bu məsələlərin aydın başa düşülməsi üçün Məhkəmənin praktikasını öyrənmək vacib məsələdir. Məhkəmənin praktikasını araşdırdıqda belə nəticəyə gəlmək olar ki, yuxarıda göstərilən hüquq və azadlıqlar bir-biri ilə sıx bağlıdırlar və bəzən onlar arasında sərhədləri tam müəyyənləşdirmək omur. Buna görə də, Məhkəmənin praktikasında hər bir baxılan işin spesifik xüsusiyyətləri araşdırılır və əsas mövqe bundan ibarətdir ki, bu hüquqların bir-biri ilə kəsişməsi halında ədalətli balans yaradılsın və gözlənilsin. Eyni zamanda Məhkəmənin praktikasında belə bir mövqeyə də rast gəlmək olar ki, bəzi hallarda məlumat almaq hüququ Konvensiyada nəzərdə tutulan hüquqların müdafiəsi üçün prosedur vasitə kimi nəzərdən keçirilir və Konvensiyada nəzərdə tutulan "yaşamaq" hüququ (maddə 2), "İşgəncə və qeyri-insani rəftar və cəzaların qarşısının alınması" (maddə 3), şəxsi və ailə həyatına hörmət hüququ (maddə 8) ilə bağlı dəfələrlə istinad olunur. Beləliklə, Avropa İnsan Hüquqları Konvensiyası çərçivəsində ifadə azadlığı hüququ geniş əhatəyə malik və özündə öz fikrini ifadə etmək, məlumat və ideyalar almaq və yaymaq, informasiya axtarmaq, əldə etmək və ötürmək kimi hüquqları əhatə edir.

Yuxarıda göstərilənləri yekunlaşdıraraq belə nəticəyə gəlmək olar ki, məlumat azadlığı informasiya hüququ institutuna daxil olan bir elementdir. İnformasiya hüquq institutu informasiya hüququ sahəsində subyektlərin hüquqlarının həyata keçirilməsi ilə bağlı qaydaları müəyyənləşdirən, məlumat axtarılması və əldə edilməsi, yığılması, qorunması, ötürülməsi, istifadəsi, informasiya resurslarının yaradılması və istifadəsi rejimlərini müəyyənləşdirən və tənzimləyən, göstərilən sahələrlə bağlı hüquq pozuntuları, digər insan hüquq və azadlıqlarının pozulması, dövlət və cəmiyyətin maraqlarının təhlükəsizliyinin təmin olunması ilə bağlı müəyyən məsələləri tənzimləyən hüquqi aktlar və normalar sistemidir. Müasir dövrdə xüsusi əhəmiyyət daşıyan kibercinayətlər və ya kompüter-informasiya texnologiyalarının istifadəsi ilə əlaqədar cinayətlərlə bağlı yaranan münasibətlər də informasiya hüquq münasibətlərinə

daxildir. Dövlət sirri, peşə və kommersiya sirri və s. sahələrin ayrı-ayrı aspektləri müəyyən dərəcədə informasiya hüququ ilə tənzimlənir. Aydındır ki, bu halda sadəcə məlumat azadlığı və ya informasiya azadlığı hüququndan söhbət gedə bilməz.

Məlumat azadlığı sadəcə əsas insan hüquqlarından biri kimi məlumat və ideyaları almaq, ötürmək və yaymaq hüququnu əhatə edir. Məlumat hüququnun obyekti olan hadisə, faktlar, biliklər, ideyalar və mövzular geniş olsa da, bu hüquq əsas İnsan Hüquqlarından biri kimi qiymətləndirilir. İnformasiya hüququ isə sadəcə məlumat azadlığını əhatə etmir, milli qanunvericiliyin ayrı-ayrı sahələrini və müvafiq beynəlxalq hüquq normalarını əhatə edərək informasiya cəmiyyətinin, informasiya texnologiyalarının yaradılması və inkişafı, kibercinayətlərlə bağlı münasibətləri tənzimlədiyinə görə daha genişdir və hüququn müstəqil bir institutudur.

**ƏDƏBİYYAT**


1. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı: Qanun, 2011, 99 s.
2. "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının Qanunu. 30 sentyabr 2005, 1024-IIQ.
3. Kütləvi informasiya vasitələri haqqında Azərbaycan Respublikasının Qanunu. 7 dekabr 1999-cu il, №769-IQ.
4. "Məlumat azadlığı haqqında" Azərbaycan Respublikasının Qanunu. 19 iyun 1998-ci il, №505-IQ
5. Əliyev Ə.İ. İnsan hüquqlarının beynəlxalq-hüquqi müdafiəsi. Bakı: BDU, 2009, 490 s.
6. Дружинин Г.В. Качество информации./ Дружинин Г.В., Сергеева И.Н // М.: Радио и связь, 1990, 172 с.
7. Бачило И.Л. Информационное право. Москва: Юрайт 2011, 522 с.
8. Кузнецов П.У. К Вопросу Об Информационной Свободе Как Правовой Категории Гражданского Общества / Информационное Право и Становление Основ Гражданского Общества в России. Материалы теоретического семинара по информационному праву 2007 г. Москва: 2008 с.32-33
9. Alex Conte and Richard Burchill Defining Civil and Political Rights (The Jurisprudence of the United Nations Human Rights Committee) Sec. Ed., Ashgate, 2009, 408 p
10. European Convention on Human Rights, 1950, http://www.echr.coe.int /ECHR/EN/Header/ Basic+Texts/The+Convention+and+additional+protocols/The+European+Convention+on+Human+Rights/
11. General comment no.34, Article 19, Freedoms of opinion and expression, Geneva, 11-29 July 2011 Human Rights Committee 102nd session, http://www2.ohchr.org/ english/bodies/hrc/docs/gc34.pdf
12. Universal Declaration of Human Rights, UN General Assembly Resolution 217 A (III), 10 December 1948, http://www.un.org/en/documents/udhr/
13. International Covenant on Civil and Political Rights, 1966, http://www2.ohchr.org /english/law/ccpr.htm
14. Casado Coca v. Spain, 1994, Application no. 15450/89; http://hudoc.echr.coe.int/sites/ eng/pages/search.aspx?i=001-57866#
15. Dichand and Others v. Austria, 2002, Application no. 29271/95; http://hudoc.echr.coe.int/ sites/eng/pages/search.aspx?i=001-60171#
16. Groppera Radio AG and Others v. Switzerland, 1990, Application no. 10890/84; http://hudoc.echr.coe.int/sites/eng/pages/search.aspx?i=001-57623#
17. Jerusalem v. Austria, 2001, Application no. 26958/95; http://hudoc.echr.coe.int/sites/eng /pages/ search.aspx?i=001-59220#

18. Lingens v. Austria, 1986, Application no. 9815/82; http://hudoc.echr.coe.int/sites/eng/pages/search.aspx?i=001-57523#
19. Otto-Preminger Institut v. Austria, 1994; Application no. 13470/87; http://hudoc.echr.coe.int/sites/eng/pages/search.aspx?i=001-57897#
20. Gaskin v. The United Kingdom, 1989, Application no: 10454/83; http://hudoc.echr.coe.int/sites/eng/pages/search.aspx?i=001-57491#
21. Bladet Tromso and Stensaas v. Norway, 1999, Application no: 21980/93; http: // hudoc.echr.coe.int/sites/eng/pages/search.aspx?i=001-58369#
22. Monica Macovei, Freedom of expression A guide to the implementation of Article 10 of the European Convention on Human Rights, 2nd edition, Council of Europe, Strasbourg, 2004, 64 p.

## ПОНЯТИЕ И СОДЕРЖАНИЕ ПРАВА НА СВОБОДУ ИНФОРАЦИИ

**Г.М.ВЕЛИЕВА**

**РЕЗЮМЕ**

В этой статье исследуются различия между понятиями право на свободу информации и информационное право. Рассмотрены особенности применения и толкования право на свободу информации в системе основных прав и свобод человека, а также особенности понятия информационного права в законодательстве Азербайджанской Республики и практике механизма защиты прав человека. Содержание право на свободу информации широк в рамках Международного пакта о гражданских и политических правах. Право на свободу информации оцениваетя в двух направлениях: 1) один из основных прав и свобод человека как это рассматривается в статье 10 Европейской Конвенции об основных правах и свободах человека; 2) средство для защиты прав человека, закрепленное в Конвенции.

**Ключевые слова:** свобода информации, право на информацию, свобода мысли, институт информационного права

## THE NOTION AND THE ESSENCE OF THE RIGHT TO INFORMATION

**G.M.VALIYEVA**

**SUMMARY**

This article researches the difference between the concept of the right to freedom of information and the right to information. It researches the place of the right to freedom of information in the system of fundamental human rights, the concept of the right to information under the legislation of the Azerbaijan Republic and in the practice of instruments for protection of human rights. The content of the right to freedom of information is broad within the International Covenant on Civil and Political Rights. The right to information is estimated in two forms: 1) as one of the human rights regarded in the European Convention on Human Rights (Article 10 of the Convention); 2) as a procedural means for protection of human rights.

**Key words:** freedom of information, right to information, freedom of thought, institute of information law